BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2009*

# XVIII ƏSR ŞƏRQ SİLAHLARININ TƏSVİRLƏRİ MİRZƏ MEHDİ ASTRABADİNİN "TARİXİ-NADİRİ" ƏSƏRİNİN MİNİATÜRLƏRİNDƏ

**S.Q.VAHABOVA**
*Milli Azərbaycan Tarixi Muzeyi*

Mirzə Məhəmməd Mehdi Kövkəbi Astrabadi (bütöv adı Nizaməd–din Məhəmməd Hacı əl – Hüseyn əs–Səfəvi ) Astrabadda anadan olmuşdur. Onun mənşəcə Səfəvilər nəslindən olduğu məlumdur. Mirzə Mehdi Səfəvi şahlarından sonra hakimiyyətə gələn Nadir şah ilə ilk dəfə nə vaxt görüşdüyünü qeyd etmir. Belə ki, o Astrabadda doğulduğu üçün, tanınmış tarixçi L.Lokkart özünün "Nadir şah" əsərində güman edir ki, bu müəllif əvvəl yerli Qacarların başçısı Fətəli xanın yanında qulluq etmiş, bəlkə də İran şahı Fətəli xanı 1726- cı ilin yazında II Təhmasiblə Saridə olan görüşündə müşayət etmişdi (1, 353). Məlumdur ki, 1726- cı ildə və yaxud bir qədər sonralar Mirzə Mehdi II Təhmasibin sarayında müəyyən vəzifə tutmuşdu. Yəqin ki, özünün xidmətinin əvvəllərində şahın yanında rəqəmlər katibi vəzifəsində (şah əmrçisi) və ya şahın katibliyinin (dəftərxanasının) xəttatı, daha sonralar Münşi-əl – məmalik (dövlət katibi) vəzifəsini yerinə yetirmişdir. İrandakı rus diplomatik nümayəndələri onu dövlətin birinci naziri adlandırmaqda əsassız deyildilər. Sonrakı məlumata görə, 1738- ci ildə Mirzə Mehdi Nadirdən xan titulu alır (1, 353). Yalnız 1736-cı ildə Nadirin tacqoyma mərasimindən sonra Mirzə Mehdi sarayın baş tarixçisi vəzifəsinə təyin olunur. Mirzə Mehdi bu yeni vəzifəyə çox münasib namizəd sayılırdı. Belə ki, o, keçmiş vəzifələrində sarayda baş verən bütün mühüm hadisələrdən xəbərdar idi. Onunla daim işgüzar əlaqələrdə olan Ost-Hind kampaniyasının nümayəndələri Mirzə Mehdini vicdanlı, düzgün və vacib adam sayırdılar.

Mirzə Mehdi yalnız öz tarixçilik işi ilə məşğul olmur, həm də bilavasitə sarayda katiblik və başqa vəzifələri də yerinə yetirirdi. Onun vəfatı ilə bağlı dəqiq məlumat yoxdur. Yalnız hicri 1172 və ya 1173(1758/59 və ya 1759/60) - illərə qədər yaşadığı haqqında məlumatlar var (1, 354).

XVIII əsrin I yarısında yaşamış görkəmli miniatürçü rəssam, tarixçi Mirzə Mehdi Astrabadinin əsərlərindən Şərqdə və Avropada ən geniş yayılanı "Tarixi-i Nadiri" əsəridir. Nadir şahın İranda və Orta Asiyanın qərb hissəsində hakimiyyəti dövrü öz əksini Mirzə Mehdi Astrabadinin "Tarix-i Nadiri" bəzən də "Tarix-i cahanqoşa-ye-Nadiri" adlanan tarixi əsərində tapmışdır. Bu əsərdə siyasi hadisələrlə yanaşı, sosial- iqtisadi məsələlər də bütün təfərrüatı ilə təsvir olunmuşdur. Məzmun etibarilə bu əsər həm də hərbi tarix, daha dəqiq desək, ordunun hərbi yürüşləri, qalaların mühasirəsi və hücumlar haqqında hərbi məcmuədir. Məzmunun əsas qayəsi şah və onun qələbə əzmli ordusunun təsvirindən ibarətdir. Ədəbi cəhətdən savadlı, münşi titulu alan Mirzə Mehdi Astrabadi həm də Nadir şahın şəxsi katibi vəzifəsini daşımışdır. Buna görə o, bütün siyasi hadisələrdə, bəzən isə Nadir şahın səlahiyyətli

nümayəndəsi kimi də iştirak edirdi. Şahı tərənnüm etmək və şöhrətləndirmək məqsədilə yazılmış "Tarixi-i-Nadiri" əsərinin müəllifi öz əlyazmasında miniatürlər də yerləşdirmişdir. Bu miniatürlər işin məzmununa çəkilmiş rəngarəng illüstrasiyalardan ibarət olub, şərh olunan hərbi hadisələri elə dolğunluqla, canlı əks etdirir ki, oxucu özü həmin hadisələrin iştirakçısına çevrilir.

Mirzə Mehdi Astrabadinin bir neçə miniatüründə odlu silah növləri əks olunmuşdur. Birinci miniatürdə əfqanlarla Damğan ətrafındakı döyüş səhnəsi təsvir olunmuşdur. Arxada əllərində qırmızı, bənövşəyi, ağ və narıncı rəngli bayraqlar tutmuş bayraqdarlar, əllərində qılınc, qalxan tutmuş, başlarında torlu dəbilqələr, əyinlərində zirehli geyim, qollarında qolçaqlar olan döyüşçülər hücuma keçirlər. At üstündə, əli qılıncında olan Nadir qürurla qoşunun mərkəzində durmuşdur. Şahın önündə topçular təsvir olunur. Onların başlarında dəbilqə, əyinlərində halqalı zirehlər vardır və kəmərlərindən qılınclar asılmışdır. Təkərli toplar sədd şəklində düzülmüşdür. Topçular fitilləri alışdıran məqamda topların lülələrindən od püskürür. Nadirin qoşununda 15 ədəd top təsvir olunur, qarşı tərəfin qoşunu isə pərakəndə halda, döyüşdən qaçan vəziyyətdə təsvir olunur. Başları dəbilqəli, əllərində qalxan, qılınc, tüfəng olan bəzi atlılar hələ də döyüş vəziyyətində təsvir olunur. İrəlidə isə top atəşləri nəticəsində yerə yıxılmış döyüşçülər və bayraqdar əfqan döyüşçü görünür.

Ikinci miniatürdə Nadir Şahla əfqan qoşunlarının döyüşü canlandırılmışdır. Döyüş İsfahan yaxınlığında baş vermişdir. Toplardan istifadə edilməsinə baxmayaraq, əfqanlar savaş meydanından qaçan vəziyyətində təsvir olunur. Əllərində qılınc, qalxan, nizələr tutmuş atlılar düşmənləri yaralayırlar. Mərkəzdə 5 ədəd təkərli top, önlərində isə Nadir təsvir olunur. Nadirin başında lələkli papaq vardır və onun kəmərindən qılınc asılmışdır. Qarşısında dəbilqəli, arxalıqlı iki şəxs durmuşdur.Tədqiqatçıların fikrincə,onlar Nəsrullah Mirzə və Mirzə Mehdi xandır.

Üçüncü miniatürdə hücum səhnəsi, daha dəqiq desək, Herat yaxınlığında əfqan qoşunları ilə döyüş səhnəsi canlandırılıb. Mərkəzdə əllərində nizə, şəmşir, dəri qalxanlar, başlarında dəbilqə, zirehli geyimli piyada və süvarilərdən ibarət Nadirin ordusu əfqan qoşunu üzərinə hücum edir. Ortada əfqan əsgərlərinin cəsədləri görünür. Nadir qoşunun önündə, at belində, bir əlində seşpər, bir əli kəmərindəki xəncərdə, döyüşü izləyir, arxasında şeypurçular dəstəsi və 4 dəvə durmuşdur. Dəvələrin üstündəki toplardan- zənburəklərdən atəş açılır. Ön cərgədə topçular 4 ədəd təkərli topa fitil qoyaraq, qalanı atəşə tuturlar.

Altıncı miniatürdə Nadirin izdihamlı qoşunu ilə Osmanlı qoşununa başçılıq edən Osman paşanın qoşunları arasındakı savaş təsvir olunur. Öndə qalxanlı,qılınclı, uzun lüləli tüfəngli süvari dəstələri, mərkəzdə məğrur görünüşlü Nadir canlanır. Atların ayaqları altında düşmən meyidləri görünür. Nadirin tüfəngçilərinin bir hissəsi sıldırım qayanın üzərində yer tutaraq oradan osmanlı qoşununa atəş açır.

Yeddinci miniatürdə Nadir Şahla osmanlı qoşununa başçılıq edən Abdulla paşanın döyüş səhnəsi canlanır, üz-üzə durmuş iki tərəfin qoşunu göstərilir. Topçular ön sırada yer almışlar. Mərkəzdə əllərində qalxan, qılınc, başlarında burunluqlu, şiş uclu dəbilqələr olan döyüşən süvarilər görünür. Döyüşün fonunda hər iki tərəfdən üz-üzə durmuş 4 ədəd təkərli top təsvir olunur. Top atəşlərindən hər yeri duman, tüstü bürümüşdür, öndə isə 3 ədəd təkərli top təsvir olunur. Nadir at belində, əlində qılınc təsvir olunur. Onun qarşısında çalmalı və dəbilqəli üç sərkərdə görünür. Onlardan birinin Mirzə Mehdi xan olduğu güman edilir. Mərkəzdə Abdulla paşanın ölmüş cəsədi Nadirin atının ayaqları altında göstərilir.

Yuxarıda təsvir olunan miniatürlərdə istifadə edilən silahların, səhra toplarının hazırlanması, istifadə qaydası haqqında geniş məlumat vacibdir.

Nadir şah hələ Şah Abbasın dövründə yaradılan orduda köklü dəyişikliklər etməmişdi, özündən əvvəlki ənənəyə sadiq qalaraq ordunu olduğu kimi saxladı. "Poxodı Nadir şaxa v Qerat, Kandaqap, İndiö v i sobıtiə v Persii posle eqo smerti" əsərində bu barədə ətraflı məlumat verilir. "Nadir şah Abbasın yaratdığı İran ordusunu aşağıdakı vəziyyətdə götürmüşdü: piyadalar üç növə ayrılmışdılar; ağır – cizairçi, yüngül – tüfəngçi və kamandar. Ağır piyada dəstəsi uzun tüfənglərlə silahlanmışdı; tüfənglər 45 funt çəkisində idi. Yüngül piyada dəstəsi fitilli tüfənglərlə silahlanmışdı. Kamandarlar isə ox və yayla təchiz olunmuşdular.Artilleriya ağır top və falkonet (zənburəklərdən) ibarət idi" (2, 18).

Tarixdən məlumdur ki, odlu silahın zəifliyi Səfəvi ordularının osmanlılarla toqquşmasında bir neçə dəfə məğlub olmalarının əsas səbəblərindən biri idi. Odlu silah istehsalı XVI–XVII əsrlərdə, I Şah Abbasın ordunu yenidən qurduğu vaxtlarda geniş inkişaf etdi, "topçular","tüfəngçilər" dəstələri təşkil olundu.(3, s.80). Azərbaycanda odlu silahın ilk nümunələri quruluşuna, keyfiyyət və düzəlmə üsuluna görə çox müxtəlif idi. Silahlar ayrı-ayrı ustalar tərəfindən hazırlanırdı ki, ustaların hər biri öz biliyini gizli saxlayırdı. Məhz silahı düzəldən usta adətən döyüşdə ona qulluq edirdi (4, 289). Ona görə də topçular süvari əsgərlər deyil, xüsusi sexin ustaları sayılırdılar. Əvvəllər silahlar texniki hesablamalarsız düzəldilirdi, ona görə də davamsız olurdu, atışma zamanı dağılırdı. Tədricən silahların ixtisaslaşması baş verdi: dik atəş trayektoriyası ilə atan silahlar mortira (qısa lüləli top) adlanır, yer səthinə paralel olaraq müəyyən hündürlükdə gedən trayektoriya (atılan güllənin cızdığı əyri xətt) üzrə atan silahlar isə top adlanırdı (5, 22). Şərqdə ilk mortiralara "dig" və ya "qazan" deyilir. Həmin silah barıtın qoyulması üçün yerin böyük çuxur formasında olması ilə əlaqədar belə adlanmışdır. Bu odlu silahlar birbaşa döyüş sahəsində mis və ya tuncdan tökülürdü. Çünki çəkilərinin ağır olması səbəbindən bu silahlar zədələnmədən yerinin dəyişdirilməsinə imkan vermirdi. Silahlar xüsusi binalarda yerləşirdi ki, bu binalar "gurxanə", nəzarət edənlər isə "cəbbədar" adlanırdı. Toplar birbaşa döyüş hərəkətləri olan yerlərdə və döyüş ərəfəsində xüsusi formalarda tökülürdü. İlk belə silah növləri bütöv tökülmüş xüsusi formalı dəmir, tunc və ya mis lülələr olmuşdur. Bu zəiflik hələ Şah İsmayılın Çaldıran döyüşündə (1514), həmçinin XVI əsrin sonundakı daha böyük döyüşlərdə özünü biruzə vermişdi. Bunun üçün də I Şah Abbas odlu silah və barıt istehsalının inkişafına yönəlmiş bir sıra ciddi səylərə başladı. Ümumiyyətlə, Azərbaycanda barıt istehsalı üçün böyük kükürd ehtiyatı mövcuddur. Bu barədə XVII əsr mənbələrində çox miqdarda məlumat var. Belə ki, Övliya Çələbi Qərbi Azərbaycanda, Araz çayının sahilində barudxanə–yəni "barıt istehsal edilən yer" adlanan ərazi haqqında məlumat verir. O deyirdi ki, bu yerin belə adlanması barıt hazırlanması üçün kükürdün çıxarılması ilə əlaqədardır (3, 81).

Osmanlı ordularının mütəmadi hücumları təhlükəsi odlu silah inkişafını labüd edirdi. Ona görə də XVII əsrdə şah hökumətinin tədbirləri üçün zəmin olaraq çoxlu mahir ustalar – tökməçilər Azərbaycanın şəhərlərindən dəvət olunurdu. Təbrizin ən bacarıqlı, mahir toptökmə ustaları nəinki Azərbaycanda, həm də Səfəvi dövlətinin hüdudlarından da kənarda şöhrət tapmışdı (3, 83). Təbriz silahtökmə işində məşhur mərkəz idi. Cənuba yürüş etməyə dəvət edilən bir dəstə erməninin I Pyotra yazdıqları məktubların birində məlumat verilirdi ki, "Təbrizi tutmaq üçün böyük ordu lazımdır", çünki şəhərdə "80 topu və çoxlu müxtəlif hərbi sursatları olan" xan yaşayır (6, 210).

Odlu silahların düzəldilməsində ən vacib mərkəzlərdən biri də Şamaxı olmuşdur. Belə ki, metal vasitələr istehsalında mövcud olan ənənələr, adətən, silah işinin inkişafına də təsir göstərmişdi. Odlu silaha olan tələbatın artması mahir Şirvan ustalarının ixtisaslaşmasına gətirib çıxardı. Artilleriya silahları məqsəd və işlədilməsinə görə XVIII-XIX əsrlərdə səhra, mühasirə və qala silah növlərinə bölündü. Artilleriya silahları sayılan toplar Şəki xan sarayının rəsmlərində də təsvir olunmuşdur (7, 140). "Vəliəhd Abbas Mirzə saray əyanları ilə", "Vəliəhd Abbas Mirzənin rus qoşunları ilə döyüşü" adlı rəsm əsərlərində ( hər ikisi 1815-ci ildə yağlı boya ilə çəkilmiş və hal-hazırda Sankt–Peterburqda, Ermitajda nümayiş edilir) səhra topları təsvir edilmişdir (8, 44-46).

Şərq mənbələrində artilleriya silahı ümumiyyətlə, "top" adlanır. Sarayın rəsmlərində səhra topları təxminən 80-90 sm. hündürlüyündə və 2 m uzunluğunda təsvir olunmuşdur. Toplar lülə və top altlığından ibarət idi. Lülə tökmə borudan ibarət olurdu. Bu boru isə xəzinə, fırlanğıc və ağız hissəyə bölünürdü. Atəş barıtın lülənin xəzinə hissəsindəki fitil dəliyindən keçərək yandırılması ilə yaranırdı. Belə ki, bir döyüşçü polad çubuğu fitil dəliyinə sancır, başqa döyüşçü isə möhkəm qızdırılmış polad çubuğu həmin fitili yaxınlaşdırırdı.

Rus ordusunun generalı A.P. Yermolov yazır ki, bu tip toplar ancaq atlı variantda istifadə olunurdu və onların müxtəlif kalibrləri var idi (9, 93). Bu məlumatları Q.Druvil də, Təbrizdə ona rast gəlmiş topları təsvir etməklə, təsdiqləyir (10, 195; 142).

Topların qala variantında top altlığı olmurdu və onlar sadə özül üstündə yerləşdirilirdi. Kiçik kalibrli qala topları zənburəklər adlanırdı. Belə ki, XIX əsrin 30-cu illərində Bakı qalasında aparılan qazıntılar nəticəsində Ləzgi məscidində zənburək tapılmışdır (topun kalibri 40 mm, lüləsinin uzunluğu 66 sm.-dir) (11, 34) (Ytf. № 1001).

Daha iri qala toplarının 2 nümunəsi Şəki diyarşünaslıq muzeyində saxlanılır. Bu toplar səhra artilleriyasının altlıqsız top variantına mənsubdur. Qala və mühasirə artilleriyasına yer səthinə paralel olaraq, müəyyən hündürlükdə atan topdan əlavə, dik atəş topu olan mortita, yəni qısa lülıli top da daxildir.

Qeyd olunanlardan belə məlum olur ki, XVIII əsrdə odlu silahların bir növü olan səhra topları, zənburəklərdən çox geniş şəkildə istifadə edilmişdir. Mirzə Mehdi Astrabadinin "Tarixi-Nadiri" əsəri və bu əsərə çəkilmiş miniatürlərdə də bu, öz təsdiqi tapır və həmin silahlar haqqında ətraflı məlumat toplamağa imkan verir.

## ƏDƏBİYYAT


1. Локкарт Л.Надир Шах. Критические исследования на основе первоисточников. Лондон,1938.//Пер. с англ. Гезаловой И.Р. Баку: 2004, с. 396.
2. Походы Надир шаха в Герат, Кандагар, Индию и события в Персии после его смерти. Тифлис: 1889, с. 400.
3. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в Баку. 1967 г., с.189.
4. Мамедов С. История войн и военного искусства Азербайджана. Баку: 1997, с. 385.
5. Əhmədov S.Ə. XIII – XV əsrlərdə Azərbaycan hərb sənəti tarixi. e.m. avtoreferat. Bakı: 2001, s. 32.
6. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Баку: 1982, с. 280.
7. История, география и этнография Дагестана XVIII-XIX вв. Сб. док. М.: 1958.

8. Salamzadə A.R., İsmayılov M.A., Məmmədzadə K.M. Şəkinin memarlıq abidələri. Bakı: 1987, s. 140.
9. Каджар Ч. Каджары. Баку: 2000, с. 150.
10. Кибовский А., Егоров В. Персидская регулярная армия 1-ой пол. XIX в. ч. 2.с.30.
11. Ермолов П.Н. О заведении регулярных войск в Персии.1817.ОПИ ГИМ. ф.93, ед.хр. 846.
12. Друвиль Г. Путешествие в Персию в 1812 и 1813 годах… ч. 1-2. М.: 1826, с.201, 250.
13. Амирбекова Н.Ш. Вопросы военной истории Азербайджана в период ханств. Баку: 2004, с. 18.
14. INTERNET resurs: Мирза Мехти-хан Астрабадский – История Надир шаха//www.vostlit.ru.

## ОПИСАНИЕ ВОСТОЧНОГО ОРУЖИЯ XVIII ВЕКА В МИНИАТЮРАХ ИЗ ПРОИЗВЕДЕНИЯ «ТАРИХИ НАДИРИ» МИРЗЫ МЕХДИ АСТРАБАДИ

**С.Г.ВАГАБОВА**

**РЕЗЮМЕ**

Статья посвящена описанию и изучению миниатюр Астрабади, известному как на Востоке, так и на Западе произведению «Тарих и Надир». В статье подробно описана биография Астрабади, так и атмосфера того периода. Основную часть статьи занимает описание миниатюр, посвященных военным походам Надир шаха.

## DESCPRIPTION OF ORIENTAL MILITARY OF XVIII CENTURY IN MINIATURES FROM «TARIXI NADIRI» OF M.M.ASTRABADY

**S.Q.VAQABOVA**

**SUMMARY**

The article is devoted to the description and research of miniatures of known writer of "Tarix Nadir" Astrabady. To touch to Asrtabady biography showing atmosphere of those period. As a palace annalist his duty was to bring famous his lord. Astrabady in his miniatures can show Nadir shakh in all his sublimely. The main part of article is devoted to the military marshes of Nadir Shakh.